## YENİ NƏŞR

## BAKI DÖVLƏT UNİVERSİTETİ - 100




## BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASI 100 İL ELM VƏ TƏHSİLİN XİDMƏTİNDƏ

**İSMAYILOVA NİGAR NURƏDDİN QIZI**
***BDU, Kitabxanaşünaslıq kafedrası, dosent əvəzi,***
***tarix üzrə fəlsəfə doktoru***
***n.musaeva@rambler.ru***

Azərbaycanın nüfuzlu elm və təhsil ocağı olan Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. 2019-cu ildə təsis edilməsinin 100 yaşı tamam olan Bakı Dövlət Universiteti Müsəlman Şərqində yeni tipli ilk ali məktəb kimi azərbaycançılıq məfkurəsinə daim sadiqlik nümayiş etdirmişdir. Azərbaycanda ali təhsil sisteminin qurulmasında, yaradıcı elmi təfəkkürün innovativ ideyalar əsasında formalaşdırılmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında, hazırlıqlı kadr potensialının davamlı təkmilləşdirilməsi və elmi-intellektual mühitin inkişaf səviyyəsinin daha da yüksəldilməsində, o cümlədən Azərbaycan xalqının tarixi-mədəni dəyərlərinin və mənəvi-əxlaqi sərvətlərinin qorunub yaşadılmasında Universitetin təqdirəlayiq xidmətləri vardır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 14 noyabr 2017-ci ildə Bakı Dövlət Universitetinin 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi haqqında sərəncam imzalamışdır.

Bakı Dövlət Universiteti özünün 100 illik fəaliyyəti dövründə elm, təhsil, mədəniyyət və xalq təsərrüfatının müxtəlif sahələri üçün 120 min nəfərdən artıq yüksək ixtisaslı mütəxəssis, yüzlərlə elm adamı, onlarla görkəmli alim və yaradıcı ziyalılar yetişdirmişdir. Universitetin çoxminli kollektivi özünün dünya şöhrətli məzunu, Ümummilli Lider Heydər Əliyevlə fəxr edir.





Bakı Dövlət Universitetinin əsas strukturlarından biri olan Elmi Kitabxana da universitetin təsis edildiyi tarixdə, 1919-cu ildə təşkil olunmuşdur. Ölkədə ali təhsilin, elmin ənənələrinin zənginləşdirilməsində, gənc nəslin müstəqil dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyəsində mühüm xidmətləri olan, Azərbaycan xalqının milli sərvəti Bakı Dövlət Universitetinin 100 illik yubileyinə ən gözəl töhfələrdən biri Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, milli kitabxanaşünaslıq elminin banisi, tarix elmləri doktoru, "Şöhrət" ordenli professor Abuzər Xələfovun qələmə aldığı "Bakı Dövlət Universitetinin Elmi Kitabxanası - 100" monoqrafiyadır.

Respublikamızın ən böyük və zəngin elmi kitabxanalarından biri olan BDU-nun Elmi Kitabxanasının yaranma tarixi və fəaliyyətinə həsr edilmiş bu monoqrafiya müəllifin öz sözləri ilə desək, "*həyatda qazandığım bütün müvəffəqiyyətlərə görə borclu olduğum, doğma Azərbaycanımızın təhsil və elm məbədgahı kimi müqəddəsləşən Bakı Dövlət Universitetinin 100 illiyinə bir övlad yadigarıdır*".

Azərbaycanda ilk ali təhsil və elm məbədgahı olan Universitetin yarandığı gündən bu günə qədər yaşamış şərəfli ömründə, əhəmiyyətli tarixi yolunda onun bir əsrlik kitabxanasının tədqiqinə Ulu Öndər Heydər Əliyevin "Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır!", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə də Universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür!" kəlamları ilə başlaması monoqrafiyanın əhəmiyyəti və çəkisini daha da artırır. Ulu Öndərin və ölkə Prezidentinin Bakı Dövlət Universitetinə verdiyi bu yüksək qiymətlər universitetin çoxminli kollektivinin fədakar əməyinə verilən dəyərdir.

Kitabxanaşünas alim monoqrafiyada BDU-nun Elmi Kitabxanasının fəaliyyətini 7 fəsildə tədqiq edir. BDU-nun Elmi Kitabxanasının yaranması və ilk on ildə fəaliyyəti tədqiq olunarkən Azərbaycan Xalq Cümhuriyyətinin xalqın milli özünüdərkində, milli şüurunun oyanmasında mühüm rolu olan milli mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin elmi-mədəni inkişafındakı xidmətləri araşdırılır. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti olduqca düşünülmüş, xalqın milli mənafeyinə, azərbaycançılığa xidmət edən, ölkəmizin təhsil və elmi potensialını daim inkişaf etdirməyə yönələn kompleks bir siyasət idi və onun əsasında ibtidai, orta, orta ixtisas məktəblərinin təşkili ilə yanaşı, ali məktəblərin açılmasına da xüsusi diqqət yetirilirdi. Məhz bu siyasətin nəticəsidir ki, parlament 1919-cu il sentyabrın 1-də Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Ümummilli Lider Heydər Əliyev yazır: «Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlamış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universi-

tetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi... Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək, onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm».

Müəllifin qeyd etdiyi kimi, Azərbaycan Xalq Cümhuriyyəti özünün yaratmış olduğu elm və təhsil məbədgahının bəhrəsini görməsə də, bu möhtəşəm elm ocağı Azərbaycan xalqının taleyində çox mühüm hadisə oldu. Xalqımızın gələcək inkişafında, gələcək nəsillərin yetişməsində sönməz mayak rolunu oynadı. Milli dövlətçiliyimizin tarixi nailiyyəti olan Azərbaycan Xalq Cümhuriyyəti qısa ömür yaşasa da, xalqımızın əzəli arzusu olan müstəqillik ideyalarının gələcəkdə gerçəkləşməsi üçün zəngin ənənələr formalaşdırdı, milli ideologiyanın, Azərbaycançılıq məfkurəsinin inkişafının elmi əsaslarını yaradıb yadigar qoydu.

Fundamental və yüksək elmi-nəzəri sanballılığı ilə böyük əhəmiyyət kəsb edən monoqrafiyada Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra BDU-nun fəaliyyətinin yeni şəraitə uyğun qurulması: universitetin maddi-texniki bazasının möhkəmlənməsi, yüksək ixtisaslı kadr korpusunun yaradılması, tələbə qəbulunun artırılması, yeni fakültə və ixtisasların açılması və s. geniş işıqlandırılır. Elmi Kitabxananın XX əsrin 30-40-cı illərindəki fəaliyyəti, xüsusilə 1930-cu ildə SSRİ-də ali təhsil sisteminin yenidən qurulması və universitetin fakültələrinin ayrı-ayrı institutlara çevrilməsi ilə əlaqədar universitet kitabxanasının fondunun da yenu yaranan institutlar arasında bölüşdürülməsi, 1933-34-cü tədris ilində universitetın yenidən fəaliyyətə başlaması ilə əlaqədar onun əsaslı kitabxanasının da qismən bərpa edilməsi, kitabxananın Böyük Vətən müharibəsi və müharibədən sonrakı illərindəki fəaliyyəti professor A.Xələfovun elmi üslubundakı arxiv sənədlərinə sistemli müraciət, fasiləsiz axtarış, yeni fakt və sənədlərin elmi dövriyyəyə daxil edilməsi ilə tədqiq olunur.

A.Xələfovun elmi-tədqiqat istiqamətlərindən birini Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda kitabxana işinin inkişafındakı xidmətlərinin təhlili, onun nəzəri irsinin kitabxanalarda təbliği məsələləri təşkil etdiyindən, bu monoqrafiyada da Elmi Kitabxananın 1970-1980-cı illərdəki fəaliyyətinin araşdırılması xüsusilə diqqəti cəlb edir. 1969-cu ildə Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə böyük təşkilatçılığı və prinsipiallığı sayəsində qısa zamanda respublikamızda təhsil sistemində, kitabxana işində böyük uğurlar qazanıldı. Müəllif statistik göstəricilərdən bəhrələnərək BDU-nun Elmi Kitabxanasında sənəd fondunun tərkibi və sayının, kitabxanaya gəliş, kitab verilişi, oxucuların sayı və kontingenti haqqında faktlar ortaya qoymuşdur.

Universitetin təəssübkeşi, qocaman alimi, peşəkar pedaqoqu A.Xələfov respublikanın müstəqilliyi şəraitində də bu ali təhsil ocağının kitabxanasının fəaliyyətinin təhsil prosesinin əsas aparıcı strukturlarından birinə çevrilməsini,





milli ideologiya, dövlətçiliyimizin möhkəmlənməsi və inkişafında müstəsna xidmətlərini böyük iftixar hissi ilə qeyd edir: "Suverenliyini əldə etmiş müstəqil Azərbaycan dövlətinin qarşısında təhsilin yenidən qurulması, demokratikləşdirilməsi, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, cəmiyyətin və dövlətin inkişafına, maraq və mənafeyinə xidmət edən sistemin yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur". Professor Elmi Kitabxananın müstəqillik illərindəki fəaliyyətini iki - 1991-2007-ci illərə və 2008-2019-cu illərə əhatə edən iki fəslə bölərək tədqiq edir. İlkin mərhələdə Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə hakimiyyətə gəlməsi ilə Azərbaycan təhsil sisteminin böhran vəziyyətindən çıxması, dərin təhsil islahatlarının aparılması, Azərbaycan təhsilinin müasir dünya təhsil sisteminə inteqrasiya edilməsi üçün əlverişli perspektivlər açılmasını xüsusilə vurğulayır. Elmi Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxanaya ayrılan maliyyə vəsaitinin artırılması sahəsində keçid dövrünün çətinliklərinə baxmayaraq, mühüm işlər görüldüyü, xüsusilə oxuculara xidmət işinin təşkili və fondun komplektləşməsinin inkişaf dinamikası qeyd edilir. Sonrakı mərhələdə Ulu Öndər Heydər Əliyev və onun siyasi davamçısı Prezident İlham Əliyev tərəfindən imzalanmış və ölkədə kitabxanaların qorunub saxlanmasını təmin edən, kitabxana siyasətinin formalaşdırılması zərurətini irəli sürən kitabxana işinə dair dövlət qərarları, sərəncamları, proqram və sənədləri haqqında ətraflı məlumatlar verilir.

Monoqrafiyada kitabxananın ayrı-ayrı şöbə və bölmələrinin fəaliyyəti öyrənilərək ümumiləşdirilmiş və onlar haqqında detallı statistik məlumatlar verilmişdir. Tarixi və elmi əhəmiyyət kəsb edən kitabxananın fondunda çox qiymətli 2 500 449 nüsxə ədəbiyyat saxlanılır. Bunların da 1434550-ni elmi fond, 684 899-nu tədris fondu, 201466 nüsxəsini isə dövri nəşrlər təşkil edir. Kitabxananın Nadir kitablar, Azərbaycanşünaslıq və Şərq şöbələrində Azərbaycana, Cənubi Qafqaz ölkələrinə, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələrinə dair Azərbaycan, rus, türk, ərəb, fars, ingilis, fransız və s. dillərdə çox qiymətli 34 700-dən artıq çox nadir kitablar, XIII-XVIII əsrlərə dair 94 qiymətli əlyazma saxlanılır. 1998-ci ildən bu günə kimi BDU-da müxtəlif elm sahələrinə aid müdafiə edilən 4540 dissertasiya və 73930 avtoreferat saxlanılır ki, onların 1250-si Azərbaycan, 3290-ı isə rus dilindədir. Kitabxananın daimi oxucularının sayı 15 806 nəfərdir. Bunlardan 10 644 nəfəri tələbə, 458 nəfəri müəllim və 230 nəfəri professordur.

Müəllif BDU-nun Elmi Kitabxanasının bir əsrlik fəaliyyətini tədqiq etməklə onun respublikanın ən böyük elmi kitabxanalarından birinə çevrildiyini, öz fondunun zənginliyi, nadirliyi və oxuculara xidmət işinin təşkili baxımından Respublika Milli Kitabxanasından sonra ikinci yer tutmasını, onun respublika ali təhsil müəssisələri kitabxanalarının metodiki mərkəzi funksiyasını xüsusilə vurğulayır.

Çoxillik elmi-nəzəri və pedaqoji fəaliyyətində həmişə zamanla səsləşən başlıca aktual məsələlərin reallaşdırılmasını öz iş prinsipinin başlıca əsaslarından biri kimi müəyyən edən A.Xələfov yeni informasiyalaşdırılmış cəmiyyət şəraitində bütün sahələrdə olduğu kimi, kitabxana işində də müasir texnologiyaların tətbiqini, yeni qabaqcıl texnoloji vasitələrdən, informasiya texnologiyalarından istifadənin zəruriliyini əsaslandırmağa çalışmış və monoqrafiyada bu istiqamətdə də konkret fundamental əməli addımlar atmışdır. Kitabın sonunda «Kitabxanaların kompüterləşdirilməsi» elmi-tədqiqat laboratoriyasının fəaliyyəti, Elmi Kitabxanada innovativ layihələrin tətbiqi, BDU-nun elektron kitabxanasının, rəqəmsal referativ jurnallar kolleksiyasının yaradılması, açıq əlyetərli (Open Access) rəqəmsal kolleksiya layihəsi haqqında geniş məlumatlar verilmişdir.

Bakı Dövlət Universiteti Elmi Kitabxanasının 69 il oxucusu olmuş, bir kitabxanaşünas alim kimi kitabxananın elmi fəaliyyətində yaxından iştirak etmiş, kitabxananın zəngin bilik xəzinəsindən bəhrələnmiş professor A.A.Xələfov kitabxananın 100 illik tarixini qələmə almaqla bu böyük elm və təhsil məbədgahı qarşısında bir oxucu kimi də öz borcunu yetirə yetirdiyinə görə qürur hissi keçirdiyini qeyd edir.

Məqaləni müəllifin öz sözləri ilə yekunlaşdıraq: "Azərbaycan xalqının milli sərvəti, milli iftixarı olan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının tarixinin öyrənilib ümumiləşdirilməsi bir daha göstərir ki, universitetin əsas atributlarının biri olan Elmi Kitabxana universitetin keçdiyi 100 illik şərəfli yolda, onun elm, tədris, mədəniyyət və maarifin inkişafı sahəsində apardığı böyük titanik fəaliyyətin əsas iştirakçılarından biri olmuş, universitetin bir saylı laboratoriyası rolunu bacarıqla və ləyaqətlə yerinə yetirə bilmişdir".